# Şura iclası

RİH başçısı yanında Şuranın üzvləri, İnzibati ərazi dairəsi üzrə nümayəndələri, bələdiyyə sədrləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərlərinin iştirak etdiyi tədbirdə 2023-2024-cü tədris ilinin yekunları və yeni dərs ilinə hazırlıq, kənd təsərrüfatına yararlı torpaqların münbitliyinin və istehsal olunmuş kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi və torpaqlardan təyinatı üzrə istifadə edilməsi, qəsəbə və kənd inzibati ərazi nümayəndəliklərində təsərrüfatbaşına uçotun aparılması vəziyyəti və “Azərbaycan Respublikasının rayon və şəhərlərdə icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat”a uyğun olaraq vətəndaşların ərizə, şikayət və təkliflərinə vaxtında baxılması barədə danışılmış, mövcud problemlər və qarşıda duran məsələlər müzakirə edilmiş, müvafiq tapşırıq və tövsiyələr verilmişdir.





# ”Bir Peşənin sirri“ festivalı

Azərbaycan Respublikası Təhsil Nazirliyi Peşə Təhsili üzrə Dövlət Agentliyi, Qəbələ Rayon İcra Hakimiyyəti və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə “Bir Peşənin Sirri” festivalı keçirilib. “Qəbələ Mall” mərkəzində təşkil edilmiş tədbirin keçirilməsində əsas məqsəd peşə təhsilinin əhatə dairəsini daha da genişləndirmək, gənclərin, valideynlərin o cümlədən bütün maraqlı tərəflərin bu prosesə cəlb edilməsini təmin etməkdir. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan peşə təşkilinin inkişafı strategiyasının bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd etmiş, rayonumuzda təhsil sahəsində qazanılmış uğurlardan danışmış, rayonda görülmüş işlərə görə ölkə rəhbərliyinə təşəkkür edərək festivalın işinə uğurlar arzulamışdır. Digər çıxışlarda peşə təhsilinin ölkənin iqtisadi inkişafındakı strateji rolundan, gənclərin məşğulluq imkanlarının artırılması və peşə təhsilinə olan marağın yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edilmişdir. Festivalda Qəbələ, Şəki, İsmayıllı, Kürdəmir və Qax peşə təhsil müəssisələrində turizm, mədəniyyət, sənaye, kənd təsərrüfatı, İKT və ictimai iaşə istiqamətlərində təhsil alan tələbələrin əl işlərindən ibarət sərgilər, ustad dərsləri və region üzrə peşə təmayüllü siniflərin şagirdlərinin əl işlərindən ibarət sərgilər nümayiş etdirilmişdir. Həmçinin tərdbirdə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin əməkdaşlıq etdiyi “Aspi Agro” MMC, “Qəbələ Xanlar” restoranı, “Qafqaz Qəbələ” MMC kimi işəgötürən müəssisələr də təmsil olunmuşlar. Bununla yanaşı tədbir iştirakçıları üçün əyləncəli oyunlar, viktorinalar keçirilmiş, qaliblər dəyərli hədiyyələrlə mükafatlandırılmış, tədbir iştirakçılarına müxtəlif peşələrin sirri ilə bağlı maraqlı məlumatlar verilmişdir.



# Vətəndaş qəbulları

9 və16 avqust 2024-cü il tarixlərində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaşların qəbulları keçirilib. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. Onların irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.





# Səyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.





Qəbələ şəhəri.



Bum qəsəbəsi.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin avqust ayında səyyar qəbullar Qəbələ şəhərində və Bum qəsəbəsində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**“Qəbələ”.**

**Fotolar S. Umuyevindir.**

# Azərbaycan əlifbası və Azərbaycan dili günü

Rayonun ümumtəhsil məktəblərində 1 Avqust - Azərbaycan əlifbası və Azərbaycan dili gününə həsr olunmuş silsilə tədbirlər keçirilib. Tədbirlərdə ana dilimizin keçdiyi inkişaf yolu, dilimizə göstərilən dövlət qayğısından bəhs etməklə yanaşı dilimizin tarixin müxtəlif dövrlərində ərəb-fars dillərinin təsirinə məruz qalması, Sovet hakimiyyəti illərində tariximizə, eləcə də dilimizə qarşı yeridilən yadlaşdırma siyasətindən söz açılmış, Azərbaycan dilinin qorunmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolu olduğu və ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətlə doğma ana dilimizin bugünkü inkişaf səviyyəsinə çatmasında olduqca mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılmışdır. Tədbirlərdə şagirdlər ana dilimizə həsr edilən şeirlər söyləmiş, ədəbi-bədii kompozisiyalar nümayiş etdirmişlər.

